*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2024, № 1* *ISSN: 2663-2926*
*Səhifə: 107-112* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2024.1.107*

# Teatr-dram sənəti Roma dönəmində

**Aynurə Mustafayeva**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: aynure.ibadulla@gmail.com

**Annotasiya.** Məqalədə teatr-dram sənətinin Roma dönəmi araşdırılmışdır. Qədim Roma dünyanın yalnız siyasi deyil, həm də mədəni mərkəzi idi. Antik yunan cəmiyyətinin öz siyasi müstəqilliyini itirərək onun əyalətinə çevrilməsi Romaya həm də bu mədəniyyətin varisi statusunu verirdi. Romalılar antik yunan mədəniyyətinin dəyərlərini anlamış, ona heyranlıq duymuş, onu yaşatmışlar. Teatr-dram sənəti də Romada bu mədəniyyətin ən böyük dəyəri kimi yaranıb yaşarılıq qazanmışdı. Teatr Romada arxitektur və texniki cəhətdən inkişaf etsə də, müxtəlif türlərini yaratsa da, dramatik teatr antik yunandakı qədər möhtəşəmlik qazana bilməmiş, iflasa uğramışdı. Çünki Roma cəmiyyəti öz inkişafının heç bir dönəmində yunan cəmiyyəti qədər sivil düzənə, inkişaf etmiş bir düşüncəyə sahib ola bilməmişdir. Yunana görə ikinci hakimiyyət qədər əhəmiyyətə malik olan teatr-dram sənəti romalıya görə kölələrin işi idi. Araşdırmada bu qənaətə gəlinmişdir ki, yetərincə azad bir toplum düşüncəsinin, dialoq dilinin, mübahisələrin olmadığı Roma cəmiyyəti bu sənətin inkişafı üçün antik yunan cəmiyyətindən fərqli olaraq münbit deyildi.
**Açar sözlər:** teatr, dram, Roma, yunan, komik, tragik

**Məqalə tarixçəsi:** göndərilib – 03.04.2024; qəbul edilib – 16.04.2024

# Theater-drama art in the Roman period

**Aynura Mustafayeva**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: aynure.ibadulla@gmail.com

**Abstract.** The article examines the Roman period of theater-drama art. Ancient Rome was not only the political but also the cultural center of the world. The fact that ancient Greek society lost its political independence and became a Roman province also gave Rome the status of heir to this culture. The Romans understood the values of ancient Greek culture, admired it, and kept it alive. Theater-drama art also flourished in Rome as one of the greatest values of this culture. Although theater developed architecturally and technically in Rome, creating various forms, Roman drama could not achieve the grandeur of ancient Greek theater. Not only did it fail to reach such grandeur, but it even declined. This is because Roman society was never able to attain the same level of civilized order and intellectual development as Greek society during any period of its history. While the Greeks considered theater and drama to be a second form of power, to the Romans, it was largely the work of slaves. The research concluded that Roman society, which lacked the free social

thought, dialogic language, and debate culture essential for the growth of this art, was not fertile ground for its development – unlike ancient Greek society.
**Keywords**: theater, drama, Roman, Greek, comic, tragic

**Article history:** received – 03.04.2024; accepted − 16.04.2024

## Giriş / *Introduction*

Teatr-dram sənətinin inkişaf tarixinin Roma dönəmi bu sənətin özəlliklərini çözmək baxımından kifayət qədər maraqlı dönəmdir. Məlumdur ki, Antik Yunanıstanda yaranan bu sənət Romada öz yaşarılığını davam etdirsə də, yüksəlişə keçməmiş, əksinə getdikcə zəifləmiş, sonunda iflasa uğramışdı. Bu prosesin analitik şərhini vermək, səbəblərini araşdırmaq məqalənin tədqiqat məqsədidir. Bu məqsədi həyata keçirmək üçün mövzu-problem Roma dönəmində oluşan yeni tarixi şərait müstəvisinə çıxarılıb ictimai-siyasi şərtlər kontekstində çözüləcək. Yunan teatrı ilə Roma teatrı arasındakı fərqlər yalnız sənət məsələsi deyil, həm də sosioloji məsələdir. Odur ki, mövzu-problemin şərhinə kompleks şəkildə yanaşılacaq, teatr-dram sənətində tarixi, siyasi, sosial şərtlərin yaratdığı məzmun şərh olunacaqdır.

## Əsas hissə / *Main part*

Antik Yunan (Afina şəhər dövləti) özündən sonrakı dünyanın siyasi, mədəni, ədəbi, elmi, fəlsəfi yönlərini müəyyən edəcək qədər bir sivil güc olsa da, barbar güclər qarşısında zəif düşdü, e. ə. IV əsrdə Makedoniyanın istilası ilə öz ömrünü başa vurdu. Antik yunan dövləti tarixin arxivinə getsə də, onun qoyduğu elmi, fəlsəfi, mədəni irs tarixin səhnəsində idi. Çünki güclər dünyasında belə bu irsin əhəmiyyətini anlayan, onu dəyərləndirən insanlar var idi. `İsgəndərin özü bu insanlardan biri idi. O, antik yunan dövlətinin xarabalıqları üzərindən öz siyasi ambisiyalarını qursa da, onun mədəniyyətini özü ilə Şərqə daşıdı və helenistik çağ deyə bir dönəm başlatdı.

İsgəndərin qurduğu dövlət onun özündən sonra dağılsa da, əski yunan dövləti dirçəlmədi. Çünki dünya siyasi və hərbi güclər dünyasına çevrilmişdi, yunan cəmiyyəti İsgəndərdən sonra meydana çıxmış yeni siyasi gücün – Romanın içində əriməyə başlamışdı. Bu da ona yunan mədəniyyətini mənimsəmək və tarixdə onun varisi kimi görünmək şansı verdi. Əslində, Romanın dünyanın yeni mədəni mərkəzinə çevrilməsinin və tarixin yaddaşına yalnız siyasi güc kimi deyil, həm də mədəni mərkəz kimi köçə bilməsinin səbəblərindən biri və bəlkə də birincisi antik yunan mədəniyyətini yaşatması oldu.

Roma tarixdə daha çox imperiya adı ilə qalsa da, əslində öz varlığı boyunca üç cür idarə formasından keçmişdir: krallıq, respublika, imperiya. İmperiya dönəminə qədər romalılar yunan mədəniyyəti ilə tanış olmuş, onu mənimsəmişlər. Bu tanışlıqda romalıları özünə ən çox heyran edən təsisatlardan biri də teatr-dram sənəti olmuşdu. Dramatik teatrın Romaya gəlişi respublika dönəmində e.ə. 241-ci ildə Karfagen üzərində qələbədən sonra bayram tədbirlərində dramatik tamaşaların göstərilməsi ilə baş verdi. Tamaşanın quruluşu Roma senatının köləsi olan yunan Liviy Andronikə tapşırıldı. Liviy Andronik tarixə teatr-dram sənətini Romaya təqdim edən adam kimi keçdi. Onun işi təqdimatla bitmədi, həm də Roma toplumuna bu sənəti sevdirə, hətta Roma teatrını qurmaq istəyi yarada bildi. E.ə. 235-ci ildə romalı yazar Qney Neviy pyes yazmağa başladı və Roma ədəbiyyatında adını dram tarixinə yaza bilən Plavt, Terenzi, Seneka kimi dramaturqlar yetişdi.

Romada teatr-dram sənətinə yalnız qələm əhli deyil, dövlət adamları da maraq göstərdi. Bu maraq o qədər böyüdü ki, Romada və əyalətlərdə teatr binaları tikildi. Hətta Roma antik yunan

teatrını daha irəli apardı. İlk daş binalı teatr, dərinə çəkilmiş səhnə, teatr pərdəsi burada meydana çıxdı. Ümumiyyətlə, Romada teatr texniki və arxitektur yüksəlişini yaşadı.

Xüsusilə, e.ə. I əsr – Pompeyin hakimiyyəti dövrü Romada teatrın inkişaf dönəmidir. 40 min yerlik ilk pərdəli daş teatrın tikilməsi onun adı ilə bağlıdır. Pompeydən sonra Roma teatrı tarixinə adını yazdıran ikinci dövlət adamı Oktavian Avqust oldu. Romanı imperiya elan edən və tarixə adını ilk imperator kimi yazdıran Август teatrın əhəmiyyətini yaxşı başa düşürdü və bu sənəti Romada inkişaf etdirməyə çalışırdı. O, Pompey tərəfindən tikilən teatr binasını yenilətdi. Avqust teatrın inkişafının yalnız binaların yenilənməsindən yox, həm də dram yaradıcılığından keçdiyini anlayırdı. Tarixçilər onun özünün də dram yazdığını deyirlər və Roma imperatorları arasında onun adı tragediya yazarı kimi çəkilir. Avqust şeir də yazırdı, hətta tragediya da yaradırdı [7, s.34].

“Avqust teatrın ictimai əhəmiyyətini yaxşı anlayırdı və onun inkişafına öz töhfəsini verdi. Onun əsas qayğısı Roma səhnəsində yunan tipli faciənin canlandırılması ilə bağlı idi. O, faciəni öz vətəndaşlarının mənəviyyatının daha uğurlu tərbiyəsi üçün vasitə hesab edirdi. Onun bu cəhdlərini Roma şairi Horace “Şeir elmi” əsərində dəstəklədi. Avqustun cəhdlərinin görkəmli Roma şairi tərəfindən dəstəklənməsi və Avqustun öz səyləri Roma səhnəsində ciddi janrı canlandıra bilmədi. Onlar Romada teatrın ictimai rolunun azalmasına mane ola bilmədilər.. Oktavianın diktaturası dövründə faciə tənəzzülə uğradı” [5, s.33-34]. Teatr-dram sənəti Yunanıstanda toplumun düşüncə tərzi, ifadə forması idisə, Romada o, yunan sənəti qarşısında heyranlıq duyan romalıların öz mədəniyyətlərinə etdikləri transformasiya idi. Hər şeyin üzünü köçürmək mümkün idisə də, təfəkkürün üzünü köçürmək qeyri-mümkündür.

Tarixçilər Romada teatrın çox yayğın olduğunu deyirlər. “Onun əhəmiyyəti haqda imperiya dövründə bütün əyalətlərdə meydana çıxan çoxsaylı teatr binaları danışır” [4]. Ancaq teatr-dram sənətinin inkişafı çoxlu və süslü teatr binalarından deyil, bu binaları quran toplumun nə dərəcədə dram təfəkküründə düşünüb, dram dilində danışmasından keçir.

Roma cəmiyyəti müəyyən mənada yunan cəmiyyətinin davamı və bugünkü Qərb mədəniyyətinin yarandığı yer idi. Ancaq Roma cəmiyyəti respublika quruluşu yaratsa, demokratiya dönəmindən keçsə də, tarixə öz adını daha çox imperiya sözü ilə həkk edib. Dramın bura gəlişi Roma demokratiyası, süqutu isə imperiya dönəminə təsadüf etmişdir. Adını dünya dramaturgiyasına yazdıran Roma dram yazarlarının yaradıcılığı da əslində elə Roma demokratiyası dönəminin hadisələri idi. Ancaq onların yaradıcılığında belə “Roma dramı yunan dramının yenidən işlənməsindən başqa bir şey deyil” [10, s.16]. Roma yunan dəyərlərini yaşatsa da, yunan düşüncəsində yaşaya bilmirdi. Roma özünün heç bir dönəmində antik yunan qədər azad, demokratik düşüncəli, tartışma ortamlı bir cəmiyyət qura bilmədi.

Tənqidə yunan cəmiyyəti qədər açıq ola bilməyən Roma cəmiyyətində dram özünün Kral Edip, Antiqona, Medeya kimi tragik qəhrəmanlarını tapa bilmədi. Roma dramaturgiyası daha çox tarixə komik qəhrəmanları ilə köçdü. Roma ədəbiyyatının üç böyük dramaturqundan ikisi: Terenzi və Plavt komedioqrafdırlar. Tragik qəhrəman komik qəhrəmandan fərqli olaraq ideala yönəlik, çevrəsinin fövqünə qalxan, ideya daşıyıcısı olan tipdir və belə tiplər böyük ideya toqquşmalarının getdiyi cəmiyyətlərdə doğulur. O, kütləüstü, çevrəsinə ideoloji müharibə elan edən, kaderini yaratmaq uğrunda döyüşə girən tipdir. Komik qəhrəman isə çevrəsindən biridir, sadə xarakterə, mübahisəsiz istəklərə malikdir və bu istəklərinə tragik qəhrəman kimi mürəkkəb situasiyalara düşmədən, dərin müzakirələrə girmədən daha asan, tezçatan yollarla gedir. Ona görə də o, kütlə üçün tragik qəhrəmandan daha anlaşıqlı, daha maraqlıdır. Çünki kütlə tragik qəhrəmanın açdığı mövzuların dərinliyində, mübahisələrin mürəkkəbliyində azıb qalır, komik qəhrəman isə onun düşüncəsini çətinə salmır, hətta bütün mübahisə-müzakirələrdən onu əyləndirərək keçirir. Roma tamaşaçısı da əylənməyə üstünlük verən tamaşaçı idi. Hətta o, tamaşa zamanı yemək yeyəcək, səs-küy edəcək, dava edəcək qədər qaba idi [1, 15 deq.].

"Sözdən çox hərəkətə, düşüncədən çox həyəcana düşkün olan izləyici, təbii olaraq, tragediyaya önəm vermirdi" [2]. Qladiator döyüşlərinin ən sevilən tamaşa olduğu Roma toplumu üçün insan iztirablarının fəlsəfəsi deyil, insan əzablarının görüntüləri maraqlı idi. İnsan faciəsini əyləncə ilə izləyən romalı ilə insan faciəsini düşüncələrə dalaraq izləyən yunanlının psixotipi də çox fərqli olmalı idi. "Qədim romalıların xarakteri yunanlardan fərqli idi. "Romalılar" adının özü şəhərin insandan üstünlüyünə dəlalət edirdi. Romalıların dünyagörüşü yunanların dünyagörüşündən qat-qat prozaik idi [6, s.152-153].

Özgür iradənin, azad düşüncənin, ideallarin antik yunan cəmiyyəti qədər vüsət almadığı, prozaik dünyagörüşlü Roma cəmiyyətinin tragik qəhrəman potensialı zəif idi. Ona görə də Oktavian Avqustun tragediya janrını Romada dirçəltmək cəhdləri də baş tutmadı.

Yunanda teatr-dram ən ali insanların, Romada isə kölələrin sənəti hesab olunurdu. Ona görə yox ki, Roma toplumunu bu sənətlə tanış edən Liviy Andronik, yaxud məşhur dram yazarı Terenzi kölə idi. Sadəcə romalıya görə teatr aşağı statuslu insanların işi idi. Teatr tarixçisi Emixen yazır: "Romada aktyorluq peşəsinin biabırçı sayılması da iki sivilizasiyanın mədəniyyətini fərqləndirən xüsusiyyətlərdən biridir. Yunanıstanda teatra hörmətlə yanaşılır, tamaşaların günəş çıxandan gün batmasına qədər davam etməsinə baxmayaraq, tamaşaları və rol oynayan aktyorları həmişə çox diqqətlə dinləyir və izləyirdilər. Dövlət təsisatları xalqın iradəsinin ifadəsi olduğu üçün heç şübhəsiz ki, aktyorların rahatlığı üçün çalışan düşünən qurumların olması xalqa hörmətin nəticəsi idi. Və zaman keçdikcə bu hörmət daha da artdı ki, beynəlxalq hüquq nöqteyi-nəzərindən aktyorlar toxunulmaz oldu və müharibələr zamanı Neoptole tərəfindən səfir kimi istifadə edildi. (Dem/ de/ f/ l/ 313? De pace 6) Onların azad həyatı qınağa məruz qalsa da, hörmətlərinə xələl gətirmədi" [10, s.64].

Tarixi araşdırmalarda da yunan və romalının teatra fərqli münasibəti vurğulanır: "Yunanıstanda aktyorlar həmişə azad və hörmətli insanlar idisə, Romada bu, şərəfsiz sayılırdı və azad doğulmuş bir insanın səhnədə çıxış etdiyi zaman senzorların töhmət verməsi üçün kifayət qədər əsas idi" [9, s.66].

Yunan teatrının mürəkkəb, dərin məzmun-mahiyyəti Romada sadələşməyə, hətta bəsitləşməyə doğru getdi, sonucda o, bir əyləncəyə dönüşdü. Roma dramaturgiyasının əsas janrı olan komediya belə sona qədər dözüm gətirə bilmədi, məsxərə formasını aldı. Sözdən çox hərəkətə önəm verən Romada pantomim teatr inkişaf etməyə, dramatik teatr isə öləziməyə, karikaturik xarakter almağa başladı.

Yunan və Roma teatrlarının araşdırmaçısı Q.Emixen Roma teatrının inkişafını üç dönəmdə göstərir. Birinci dövrü Liviy Andronikdən Terenzinin ölümünə qədərki dövr hesab edir. O biri dövrlər haqqında isə söyləyir: "İkinci dövr şəhərin VII əsrinə təsadüf edir və Avqustun dövrünə qədər uzanır. Poetik yaradıcılığın süqutu, aktyor sənətinin yüksəlişi (maskaların tətbiqi), səhnə təmtəraqlılığı bu dövrün səciyyəvi xüsusiyyətləridir. Üçüncü dövr tənəzzül dövrüdür. Görünüş daha yaxşı, nizamlı idi (daş teatrı, Avqustun teatr qanunları və s.), lakin artıq ikinci dövrdə nüfuzlu mim və pantomima qeyri-məhdud üstünlük əldə etdi. Faciə və komediya kiçik tamaşaçı dairəsi tapdı və hətta burada mimik və musiqili tamaşalar daha böyük rəğbət doğurdu" [10, s.10].

Roma demokratiyası zamanı yaranan teatr-dram sənəti imperiya zamanı məhv oldu. Baxmayaraq ki, ölkənin bir nömrəli şəxsləri olan imperatorlar bu sənətə böyük önəm verirdilər: "İmperator Romasında teatr əyləncə və tamaşa xarakteri aldı" [4].

İmperiya dönəmində nəinki dövlətin teatra qayğısı vardı, hətta ölkənin başında Oktavian Avqust, Neron kimi teatral insanlar durmuşdu. Neron səhnəyə aktyor kimi çıxmış, Oktavian Avqust ölərkən belə səhnə detalları ilə düşünmüş, "ömrün komediyasını yaxşımı oynadım?" deyə son nəfəsində çevrəsindəkilərdən soruşmuşdu. Neronun səhnəyə çıxışı toplumda teatra deyil, Nerona olan münasibəti dəyişmişdi. "İmperatorluq dövründə aktyor peşəsi ixtisaslaşdırıldı (Yunanıstanda, Romada isə, adətən, yalnız kişilər oynayırdı), eyni zamanda əvvəlki kifayət qədər yüksək sosial statusunu itirdi: Neronun teatr tamaşalarında iştirakı müasirlərini şoka salırdı" [3].

Ancaq onu da qeyd edək ki, teatr-dram sənətinə qayğı Romada ayrı-ayrı hökmdarların adı ilə bağlıdır. Ümumilikdə isə yunan siyasi hakimiyyətindən fərqli olaraq, Roma siyasi hakimiyyəti bu sənəti özü üçün təhlükə bilirdi. "Hakimiyyət səhnənin kütləyə təsirindən qorxurdu, aktyorlara nifrətlə yanaşır, dram müəlliflərinə sayğı göstərmirdilər" [8, s.145].

Teatrın səhnəsində dramatik qəhrəman, tarixin səhnəsində isə qəddar diktator rolunu oynayan Neronun bir yandan dramatik sənətin inkişafına önəm verən, o biri yandan isə demokratiyanı boğan Oktavian Avqustun siyasi maraqları ilə sənət zövqləri arasındakı uçurumda olan cəmiyyətin dramatik qəhrəman yetirmək gücü də tükənməliydi. Odur ki, imperiya təfəkkürü və diktator yanaşmalarla idarə olunan cəmiyyətin siyasi həyatından demokratiya, səhnəsindən isə dramatizm yox olmağa başladı.

## Nəticə / *Conclusion*

Teatr-dram sənətinin Romada antik yunandakı qədər möhtəşəm ola bilməməsi sənət məsələsindən daha çox, düşüncə, yanaşma məsələsi idi. Yunan teatr-dram sənəti ilə Romanın teatr-dram sənəti arasındakı fərq yunan təfəkkürü ilə Roma təfəkkürü arasındakı fərqə bərabərdir. Antik yunanda təfəkkür mübahisələrdə özünü inkişaf etdiridisə, Romada isə təfəkkür plüarizmdən diktəyə və doqmaya doğru inkişafda özünü bitirdi. Bununla da, azad sözün, demokratik düşüncənin sənət ekvalenti olan dramatik teatrın sosial qaynaqları tükəndi və iflası qaçılmaz sonluq oldu.

## Ədəbiyyat / *References*


1. Kandemir, G. Roma Tiyatrosu. Tiyatro Tarihi. https://www.youtube.com/watch?v= jkm34wmZx0U&t=78s – deq.15
2. Roma Tiyatrosu. (Tiyatro Tarihi). Bilgicik.com 19.03.2 https://www.bilgicik.com/yazi/roma-tiyatrosu-tiyatro-tarihi/
3. Головлев А.Г. Как и зачем изучать театр? Взгляд историка / Conference. Лекция. 17.08.2018 В креативном пространстве «Штаб», Смоленск. URL: https://www.researchgate.net/publication/327100662_Kak_i_zacem_izucat_teatr_Vzglad_istorika
4. Головня, В.В. История античного театра. Глава XIX. Римский театр императорской эпохи. Источник: http://antique-lit.niv.ru/antique-lit/golovnya-antichnyj-teatr/xix-rimskij-teatr-imperatorskoj-epohi.htm
5. История древнерисского театрального искусства / История европейского театра. История древнеримского театрального искусства. URL: http://svr-lit.ru/svr-lit/tinina-teatr/istoriya-drevnerimskogo-iskusstva.htm
6. Копылова, Ю.С. Театр древней Греции и древнего Рима: общее и особенное. В мире научных открытий. Гуманитарные науки / http://lib.ugsha.ru:8080/bitstream/ 123456789/10705/1/2016-11-151-153.pdf
7. Кравчук, А. Галерея римских императоров. Принципат [Текст]: / пер. с польского. В.С.Селивановой, 2010. – Москва, астрель – 508 с.
8. Толстикова, И.И. Мировая культура и искусство [Текст] : учебное пособие для студентов высших учебных заведений, обучающихся по направлению "Культурология" / Москва: Кнорус, 2019. 416 с.
9. Утченко, С.Л. Цицерон и его время. – М.: Издательство «Мысль», 1973, – 390 с.
10. Эмихен, Г. Греческий и римский театр. / пер. на русский язык И.И. Семенова. М, URSS/ s 31

## Театрально-драматическое искусство в римский период

**Айнура Мустафаева**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: aynure.ibadulla@gmail.com

**Резюме.** В статье рассматривается римский период театрального и драматического искусства. Древний Рим был не только политическим, но и культурным центром мира. Тот факт, что древнегреческое общество утратило свою политическую самостоятельность и стало его провинцией, также дало Риму статус наследника этой культуры. Римляне понимали ценности древнегреческой культуры, восхищались ею и сохраняли ее. Театральное и драматическое искусство также зародилось в Риме как величайшая ценность этой культуры. Хотя театр в Риме развивался архитектурно и технически и создавал различные типы, драматический театр не смог достичь величия Древней Греции, не только не достиг величия, но даже обанкротился. Потому что римское общество не было способно иметь цивилизованный порядок и развитую мысль в такой степени, как греческое общество в любой период своего развития. По мнению греков, искусство театра и драмы, имевшее такое же значение, как и вторая власть, по мнению римлян, было делом рабов. В ходе исследования был сделан вывод, что римское общество, не имевшее достаточно свободной общественной мысли, языка диалога и дебатов, не способствовало развитию этого искусства, в отличие от древнегреческого общества.
**Ключевые слова:** театр, драма, римский, греческий, комический, трагический